

**Abbaslı Tural Mütəllim oğlu**

2007-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini İqtisadiyyat və İdarəetmə sahəsi üzrə fərqlənmə diplomu ilə bitirmiş və 2010-cu ildə eyni universitetdə fərqlənmə ilə magistr dərəcəsinə yiyələnmişdir. Müxtəlif illərdə Türkiyədə Orta Doğu Teknik Universitetində, Good Job şirkətində, BrandSuite şirkətində təcrübə proqramlarında iştirak etmişdir.

2004-2007-ci illərdə müxtəlif media orqanlarında çalışmışdır. 2008-ci ildən R&R travel şirkətindində marketinq kommunikasiyaları üzrə menecer kimi fəaliyyətə başlamış, daha sonra 2009-2020-ci illərdə Azərbaycanın aparıcı şirkətləri olan «Mətanət A» Şirkəti, "Veysəloğlu" MMC, "BSC Konsaltinq və Autsorsinq" MMC, Almet ASC, Azmarketinq MMC-də Marketinq Departament direktoru kimi fəaliyyət göstərmişdir. Marketinq kommunikasiyaları sahəsi üzrə Türkiyədə müxtəlif təlim və seminarların iştirakçısı olmuş Tural Abbaslı, eyni zamanda 2016-cı ildən marketinq kommunikasiyaları mərkəzi kimi fəaliyyət göstərən "COMUNİCAL" MMC-nin təsisçisi və direktorudur.Eyni zamanda USAID və KOBIA kimi yerli və beynəlxalq təşkilatların biznes təlimçisidir.

Praktik olaraq 20 ilə yaxın fəaliyyəti zamanı bir çox tədbirlərin spikeri, müxtəlif dövlət və özəl layihələrin iştirakçısı və rəhbəri olmuşdur. Bu günədək 100-ə yaxın markanın kommunikasiya proqramının müəllifi olmaqla yanaşı, "Biznes idarəçiliyi, marketinq və PR" sahəsi üzrə aparıcı şirkətlərin konsultantı və layihə rəhbəri kimi fəaliyyətini davam etdirmişdir. Yüzlərlə tələbə və gənclərə Marketinq və Satış, Marketinq Kommunikasiyaları, İctimaiyyətlə Əlaqələr (PR), Reklam, barəsində seminar və təlimlər keçmişdir.  Hal-hazırda bu tələbələrdən bir neçəsi ölkənin qabaqcıl şirkətlərində PR menecer, mətbuat xidmətinin rəhbəri, Marketinq menecer, eyni zamanda fərdi sahibkarlıqla məşğuldur.

Çap olunacaq «Marketinqin Prinsipləri» adlı kitabın müəlliflərindən biridir. «Marketinq & Menecment” adlı biznes jurnalının, «BrandMap Türkiyə» Jurnalının Azərbaycan üzrə yazarı və baş redaktorudur. “Marketing Sammiti 2017” və “Marketing Sammiti 2018” layihəsinin həmtəsisçisi, təşkilat komitəsinin üzvü, PR koordinatoru və spikeri olmuşdur.